**AZƏRBAYCAN RESPUBLİKASININ QİDA TƏHLÜKƏSİZLİYİ AGENTLİYİ**

**Q Ə R A R**

**№ 019/513**

**Bakı şəhəri**

**"05" mart 2026-cı il**

**Masallı və Ağsu rayonlarının ərazisində yerləşən heyvan bazarlarına tətbiq edilmiş məhdudiyyətin aradan qaldırılması haqqında**

Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyinin (bundan sonra – Agentlik) 15.10.2025-ci il tarixli 062/468 nömrəli "Ölkə ərazisinin xarici ölkələrdən keçə biləcək yoluxucu heyvan xəstəliklərindən qorunması üçün epizootoloji nəzarətin gücləndirilməsi haqqında" qərarına əsasən, Ümumdünya Heyvan Sağlamlığı Təşkilatının son dövrlərdə yaydığı rəsmi məlumatlar nəzərə alınmaqla, respublika ərazisində bioloji təhlükəsizlik tədbirlərinin gücləndirilməsi məqsədilə heyvan bazarlarının fəaliyyəti 25.10.2025-ci il tarixindən etibarən müvəqqəti dayandırılmışdır.

Masallı rayonu, Kosakül kəndi ərazisində yerləşən fiziki şəxs Həşimov Mirtaha Rza oğluna məxsus olan və Ağsu rayonu, Qiyaslı kəndi ərazisində yerləşən fiziki şəxs Kazımov Eldar Qulam oğluna məxsus olan heyvan bazarlarında Agentliyin Kollegiyasının 17.10.2024-cü il tarixli 50 nömrəli qərarı ilə təsdiq edilmiş "Heyvan bazarlarına dair baytarlıq-sanitariya norma və qaydaları"nın (bundan sonra – Qaydalar) tələblərinə uyğun olaraq tikinti və yenidənqurma işləri aparılmış, heyvan bazarlarında aparılmış yenidənqurma işlərinin qiymətləndirilməsi məqsədilə Agentliyin 12.12.2025-ci il tarixli 3-2ü-117 nömrəli əmri ilə yaradılmış işçi qrupu tərəfindən sözügedən heyvan bazarlarında yerində baxış və qiymətləndirmə həyata keçirilmişdir. Aparılmış qiymətləndirmənin nəticələrinə əsasən, həmin heyvan bazarlarında Qaydaların tələblərinin təmin edildiyi, bioloji təhlükəsizlik və dövlət baytarlıq nəzarətinin həyata keçirilməsi üçün zəruri şəraitin yaradıldığı müəyyən edilmişdir.

Qeyd edilənlər və aparılmış qiymətləndirmənin nəticəsi nəzərə alınaraq, Azərbaycan Respublikası Prezidentinin 13.11.2017-ci il tarixli 1681 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyi haqqında Əsasnamə"nin 3.0.33-2-ci və 3.0.33-4-cü yarımbəndlərinə əsasən

**Qərara alıram:**

1. Agentliyin 15.10.2025-ci il tarixli 062/468 nömrəli qərarı ilə respublika ərazisində tətbiq edilmiş müvəqqəti məhdudiyyətin tətbiqinə səbəb olan epizootoloji risklərin aradan qaldırılması məqsədilə görülmüş tədbirlər, habelə Agentliyin Kollegiyasının 17.10.2024-cü il tarixli, 50 nömrəli qərarı ilə təsdiq edilmiş "Heyvan bazarlarına dair baytarlıq-sanitariya norma və qaydaları"na uyğun olaraq aparılmış yenidənqurma işlərinin Agentliyin 12.12.2025-ci il tarixli 3-2Ü-117 nömrəli əmri ilə yaradılmış işçi qrupu tərəfindən müsbət qiymətləndirildiyi nəzərə alınaraq, Masallı rayonu, Kosakül kəndi ərazisində yerləşən fiziki şəxs Həşimov Mirtaha Rza oğluna məxsus olan və Ağsu rayonu, Qiyaslı kəndi ərazisində yerləşən fiziki şəxs Kazımov Eldar Qulam oğluna məxsus olan heyvan bazarlarına tətbiq edilmiş məhdudiyyət aradan qaldırılsın.
2. Sözügedən heyvan bazarlarının fəaliyyətinə 05.03.2026-cı il tarixindən etibarən icazə verilsin.

ƏSLİ İLƏ DÜZDÜR

Abbasov T.K.

05.03.2026

3. Agentliyin Lənkəran–Astara regional bölməsi Masallı rayonu, Kosakül kəndi ərazisində yerləşən fiziki şəxs Həşimov Mirtaha Rza oğluna məxsus olan heyvan bazarında, Agentliyin Dağlıq Şirvan regional bölməsi isə Ağsu rayonu, Qiyaslı kəndi ərazisində yerləşən fiziki şəxs Kazımov Eldar Qulam oğluna məxsus olan heyvan bazarında baytarlıq-sanitariya və bioloji təhlükəsizlik tədbirlərinə daimi dövlət baytarlıq nəzarətinin həyata keçirilməsini təmin etsin.

4. Agentliyin Aparatının Heyvan sağlamlığı və bioloji təhlükəsizlik şöbəsi tərəfindən fiziki şəxslər Həşimov Mirtaha Rza oğluna və Kazımov Eldar Qulam oğluna qeyd olunan heyvan bazarlarına tətbiq edilmiş məhdudiyyətin aradan qaldırılması barədə məlumat verilsin.

5. Agentliyin Aparatının İnformasiya təminatı və innovativ həllər şöbəsi bu qərarın Agentliyin rəsmi internet səhifəsində yerləşdirilməsini təmin etsin və görülən işlər barədə ictimaiyyətin məlumatlandırılmasını həyata keçirsin.

6. Agentliyin Aparatının Strateji planlaşdırma, koordinasiya və icraya nəzarət şöbəsi bu qərarın surətinin Agentliyin struktur bölmələrinə, eləcə də aidiyyəti dövlət orqanlarına göndərilməsini təmin etsin.

7. Qərar imzalandığı gündən qüvvəyə minir.

**Heyvan sağlamlığı və bioloji təhlükəsizlik şöbəsinin müdiri, Respublikanın baş dövlət baytarlıq müfəttişi** — **Qalib Əbdüləliyev**

ƏSLİ İLƏ DÜZDÜR

Abbasov T.K.
05.03.2026